Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu, *ISSN 2224-9257*
Filologiya məsələləri № 1, 2025
Səh. 279-283

https://doi.org/10.62837/2025.1.279

MEHRIBAN M.TƏHMƏZOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent
e-mail:m.tahmazova.adu.edu.az@bk.ru
Azərbaycan Dillər Universiteti
(*Bakı şəh., R.Behbudov küç.,134*)
Orcid:0000-0001-8467-8254

İNGİLİS DİLİNİN TARİXİ LEKSİKOLOGİYASI MƏSƏLƏLƏRİ

XÜLASƏ

Məqalə ingilis dilinin leksikologiyasını öyrənərkən tələbələrin qarşılaşdıqları əsas problemlərə həsr olunmuşdur. Məqalədə ali təhsil müəssisəsinin kursunda leksikologiyanın öyrənilməsinin vacibliyi vurğulanır, çünki leksik vahidlərə dair biliklər kommunikativ səriştənin formalaşması və ümumilikdə xarici dili mənimsəmək üçün əsasdır. İngilis dili leksikologiyası üzrə proqram və dərsliklər məqalənin yazılması materialına xidmət etmişdir. Tədqiqatda fənnin əsas obyekti təhlil olunmuş, leksikologiyanın dilçiliyin başqa sahələri ilə əlaqəsi, onun növləri, söz yaradıcılığı, semasiologiya və sözün etimologiyası araşdırılmışdır. Leksikologiyaya dair biliklər tələbələrə müxtəlif sözləri semantik və üslub xüsusiyyətlərinə görə tanımağa, müxtəlif söz əmələ gəlmə yollarını və leksik vahidlərin birləşməsini öyrənməyə, kontekstə uyğun olaraq leksik vahidləri seçməyə və nəhayət, öyrənməyə imkan verir.

Açar sözlər: leksik vahidlər, müqayisəli leksikologiya, alınmalar, etimologiya, məhsuldar və qeyri-məhsuldar.

Key words: lexical units, comparative lexicology, borrowings, etymology, productive and non-productive.

Ключевые слова: лексические единицы, сравнительная лексикология, заимствованные слова, этимология, продуктивный и непродуктивный.

Əksər tədqiqatçılar vurğulayırlar ki, leksikologiyanın öyrənilməsi nitq fəaliyyətinin bütün növlərində yəni, oxu, danışma, yazı və dinləmədə mühüm rol oynayır. Bununla belə, leksikologiyanın tədrisi ingilis dilinin öyrənilməsində ən mübahisəli məsələlərdən biri hesab olunur, çünki müəllim və tələbə bir çox problem və çətinliklərlə üzləşirlər, məsələn, leksikologiyanı necə öyrətməli, qənaətbəxş nəticələr əldə etmək üçün hansı yeni metod və üsullardan istifadə edilməlidir, söz ehtiyyatı minimum nə qədər olmalıdır, hər bir mövzuya yiyələnmək, yeni lüğəti necə uzun müddət yadda saxlamaq lazımdır ki, zaman keçdikcə onun öyrənilməsi faydasız olmasın, kontekstdən asılı olaraq sözün hansı mənada işlədilməsi, çoxkomponentli vahidlərdən (mürəkkəb sözlər, frazioloji birləşmələr, sabit söz ifadələr, idiomlar və atalar sözləri) necə istifadə olunmalı və s. Bütün bu həll edilməmiş problemlər

leksikologiyanın linqvistik bir fənn kimi öyrənilməsinin aktuallığını bir daha nümayiş etdirir. Ali məktəbin ingilis dili leksikologiyası kursunda ənənəvi olaraq aşağıdakı mövzular öyrənilir: söz yaradıcılığı, sözün semasiologiyası və etimologiyası. "Söz əmələ gəlməsi" bölməsində sözün quruluşunun öyrənilməsində morfem və sözün morfoloji quruluşu, morfem və törəmə növləri, söz əmələ gəlməsinin məhsuldar və qeyri-məhsuldar yolları haqqında məlumatlar verilir.

"Leksikologiya"- yunan mənşəlidir. "Söz" mənasını verən "lexis" və "elm, öyrənmə" mənasını verən "loqos" terminlərindən yaranıb, yəni söz haqqında bir elmdir. Bildiyimiz kimi, "söz" eyni zamanda fonoloji, qrammatik və semantik vahiddir. Deməli, leksikologiyanın əsas öyrənmə sahəsi söz, onun morfoloji quruluşu, tarixi və mənasıdır. O, dilin lüğət tərkibini həm diaxronik, həm də sinxronik aspektlərini araşdırır. Diaxronik aspekt ayrı-ayrı sözlərin etimologiyasını, sözlərin morfoloji xüsusiyyətlərinin inkişafını araşdırır. Sinxronik aspect cağdaş məna, onların işlənməsi ilə bağlıdır. Leksikologiya, mənalara xüsusi diqqət yetirməklə, leksik məlumatı təsvir etmək üçün dil nəzəriyyəsi və metodologiyası ilə məşğul olan təsviri dilçiliyin bir sahəsidir. Leksikologiya dilin leksikasını öyrənir. Müasir dilçilikdə leksika termini aşağıdakı kimi təsvir olunur: Dildə danışan şəxsin malik olduğu lüğət, yəni mental leksika.

Leksikologiyanın əsas məqsədini aşağıdakı kimi qruplaşdırmaq zənnimizcə düzıün olardı:

*müasir ingilis dilində söz quruluşu və söz əmələ gəlməsi problemlərini araşdırmaq; İngilis sözlərinin semantik quruluşunu öyrənmək;

*Lüğət vahidlərinin müxtəlif qruplardakı təsnifatının prinsiplərini araşdırmaq.;

*İngilis dili lüğətinin leksik təbəqələri arasında əlaqəni öyrənmək;

*Söz ehtiyatının inkişafını tənzimləyən xüsusi qanun və qaydalara riayət etmək;

*Söz ehtiyatının mənbəyini və çoxalmasını, və onun məruz qaldığı dəyişiklikləri araşdırmaq;

Leksikologiyanın növləri:

• Ümumi leksikologiya- hər hansı konkret dilin spesifik xüsusiyyətlərindən asılı olmayaraq lüğət və sözlərin ümumi tədqiqi ilə məşğul olur. Ümumi dilçiliyin bir hissəsidir. Söz, məna, kontekst və sistem münasibətləri anlayışı ilə məşğul olur.

• Xüsusi leksikologiya ingilis dili və s. kimi xüsusi bir dilin leksikologiyasıdır. O, konkret bir dilin sözlərini və lüğətini təsvir edir. Ümumi leksikologiyanın prinsiplərinə əsaslanır. O, diaxronik/tarixi leksikologiya və sinxronik/təsviri leksikologiyaya bölünür. Tarixi leksikologiya istənilən lüğətin təkamülü ilə, müxtəlif sözlərin mənşəyi, onların dəyişməsi və inkişafı ilə məşğul olur; sözlərin quruluşuna, məna və işlənməsinə təsir edən linqvistik və əlavə linqvistik amilləri araşdırır. Təsviri leksikologiya hər hansı bir dilin inkişafının müəyyən mərhələsində onun lüğəti ilə məşğul olur.

Lüğətin öyrənilməsi etimologiya, semasiologiya və onomasiologiya kimi aspektləri əhatə edir. Etimologiya (yunan mənşəli termin "Etymon"-"doğru, gerçək") sözlərin mənşəyini və tarix boyu mənalarının dəyişməsini öyrənir. Onların strukturunu, mənasını və istifadəsini dəyişdirən əlavə linqvistik təsirləri araşdırır.

Semasiologiya (yunan mənşəli "semasia"- "məna" sözündəndir) dilçiliyin söz və ifadələrlə və onların təmsil etdiyi anlayışla məşğul olan bölməsidir.

Sözü öyrənən təkcə leksikologiya deyil, dilçiliyin bir neçə başqa sahələri də onu araşdırır. Beləliklə, leksikologiya ümumi dilçilik, fonetika, üslubiyyat, qrammatika, dil tarixi, sosial dilçilik və s. ilə sıx bağlıdır. Sözləri təkcə leksikologiya bölməsi deyil, dilçiliyin digər bölmələri-semasiologiya, leksikoqrafiya, onomasalogiya, söz yaradıcılığı, etimologiya, morfologiya və sintaksis bölmələri də tədqiq edir. Leksikologiya bu bölmələrdən fərqli olaraq sözü aşağıdakı cəhətlərinə görə öyrənir:

1.Sözün dilin lüğət tərkibindəki rolu, mövqeyi;
2.Sözlərin mənşə qruplarına görə növləri;
3.Sözlərin işlənmə dairəsinə görə növləri;
4.Sözlərin məna qruplarına görə növləri;
5.Sözlərin dilin lüğət tərkibindəki aktiv və passiv roluna görə qrupları və s.

Leksikologiya dilçiliyin aşağıdakı bölmələrini əhatə edir:

Leksikologiyanın əsas məqsədi dilin lüğət tərkibini bir sistem kimi öyrənməkdən ibarətdir. Dillər öz leksik tutumu etibarilə eyni deyildir. Dil inkişaf etdikcə onun leksik tərkibi də zənginləşir. Leksik tərkibcə müasir ingilis dili zəngin dillərdən biri sayılır. Onun lüğət tərkibi, mənşəyi, təşəkkülü və inkişafı, quruluş və işlənmə dairəsi eyni səviyyədə deyildir. Ona göra də, bu dilin leksik tutumunu müxtəlif səviyyədə öyrənmək lazımdır.

Leksikologiyanın əsas məqsədi sözün mahiyyətini və tərkibini, sözlərin mənasını və çoxmənalığını aydınlaşdırmaqdan, sözün inkişaf qanunlarını dəqiqləşdirməkdən və sözlərin mənaca qruplarını müəyyənləşdirməkdən ibarətdir.

Leksikologiya, həmçinin dilin leksik tərkibini onun aktiv və passiv fondu baxımından tədqiq edir, öyrənir. Burada köhnəliklə yenilik arasında, istifadədən çıxmaqda olan sözlərlə yeni yaranmaqda olan sözlər arasında gedən bir mübarizənin nəticəsi kimi arxaizmlər, tarixizmlər nəzərdən keçirilir, neologizmlərin yaranması qanunauyğunluğu müəyyənləşdirilir.

Leksik vahidlər dildə müstəqil olan tək-tək sözlərdir. Leksik vahidlərə söz, yaxud leksem də deyilir. Leksik vahid (söz) dilin daha konkret və əsas vahididir. Belə ki, dilin bütün digər vahidləri sözün zəminində əmələ gəlir. Buna görə də leksik vahid olmadan digər vahid də ola bilməz. Məsələn, *read* sözü leksik vahidi olmadan -er morfoloji vahidinin, morfeminin şəxs anlayışını (*reader*) ifadə etməkdə heç bir rolu ola bilməz. Bununla bərabər, bütün fonemlər, səs vahidləri sözdə əks olunur və hər növ qrammatik vahidlər də sözlə ifadə olunur. Deməli, leksem-söz, ümumən

dildə və xüsusən dilin lüğət tərkibində mərkəzi vahiddir. Bütün leksik vahidlərin cəmi dilin leksik tərkibini təşkil edir.

Dilin leksik sistemi müxtəlif cəhətdən tədqiq edildiyi, öyrənildiyi üçün leksikologiyanın bir neçə növü meydana çıxmışdır.

1.Tarixi leksikologiya
2.Müqayisəli leksikologiya
3.Təsviri leksikologiya

Tarixi leksikologiya. Dilin leksik tərkibinin təşəkkülü, formalaşması, onun dəyişməsi və inkişafını tarixilik baxımından öyrənən leksikologiya tarixi leksikologiya adlanır. Leksika tarixi cəhətdən tədqiq olunarkən dilin inkişaf mərhələləri, dövrləri nəzərə alınınr, dildə bu və ya digər sözün yaranması və onun taleyi, istifadədən qalması səbəbləri izah olunur.

Müqayisəli leksikologiya. Dildəki ayrı-ayrı leksik vahidləri müqayisəli şəkildə öyrənən leksikologiya müqayisəli leksikologiya adlanır. Müqayisəli leksikologiyada, əsasən, qohum dillərin leksik tərkibi müqayisə edilir. Müqayisəli leksikologiya dillərin qohumluluğunu, bunların bir mənbədən törədiklərini müəyyənləşdirməyə kömək edir. Beləliklə, müqayisə iki şəkildə aparılır:

1.qohum olan dillərin lüğət tərkibi ilə müqayisə;
2.qohum olmayan dillərin lüğət tərkibi ilə müqayisə.

Təsviri leksikologiya. Dilin leksik sisteminin müasir inkişaf səviyyəsi təsvir olunan leksikologiyaya təsviri leksikologiya deyilir. Təsviri leksikologiya tarixilikdən təcrid olunmur. Burada bu və ya digər leksik ünsür tədqiq edilərkən tarixi faktlara da müraciət olunur. İngilis dilinin təsviri leksikologiyasının əsas vəzifəsi onun hazırkı inkişaf səviyyəsini geniş və dəqiq təsvir etməkdən ibarətdir.

Leksikologiyanın digər elmlərlə sıx əlaqəsi var. Məsələn, leksikologiya və fonologiya: Leksikologiya ilə fonologiyanın əlaqəsini onunla izah etmək olar ki, leksikoloji tədqiqatda diqqət mərkəzindəki sözün fonoloji quruluşunun tədqiqat obyekti olan səs forması olmadan mövcud ola bilməz. Sözlər məna ifadə etməyən fonemlərdən ibarətdir, lakin morfemləri əmələ gətirərək mənaları ayırmağa xidmət edir. Sözün mənası bir sıra fonoloji xüsusiyyətlərlə müəyyən edilir. Əgər "pill və bill", "meat və meal" söz cütlərini müqayisə etsək, görərik ki, bunlar bir səs vahidi ilə fərqlənsə də, fonoloji səviyyədə ciddi təsirə malik olduqları nəzərə çarpır. Vurğu mövqeyi sözün məna və kateqoriyasının dəyişməsinə də cavabdehdir, nümunə aşağıdakı kimidir: *Ex'port* (fel) satış üçün başqa ölkəyə, mal göndərmək deməkdir. *'Export* (isim) xaricə satılan məhsul və ya xidmət deməkdir. Bunu mürəkkəb sözlərdə də müşahidə edə bilirik. Yenə də vurğu faktoru əsasdır, məsələn;

a "greenhouse" (bitkilərin becərilməsi üçün şüşə ev) sözü vurğu dəyişilməklə "green 'house" (yaşıl olan ev) ifadəsinə çevriləcəkdir.

Leksikologiya və sintaksis: Sintaksis cümlənin qurulmasını, sözlərin cümlə yaratmaq üçün bir araya gətirilməsini öyrənir. Leksikanı düzgün dərk etmədən

mənalı cümlə yaradıla bilməz. Bunlardan biri Noam Çomskinin bəstələdiyi məşhur "colorless green ideas sleep furiously" cümləsidir. Cümlə qrammatik cəhətdən düzgün qurulsa da, kifayət qədər mənasız səslənir.

Leksikologiyanın Qrammatika və Üslibiyyatla əlaqəsi: Leksikologiya sözləri öyrənir, qrammatika sözdən cümlə qurmaq üçün dəyişən qrammatik problemlərlə məşğul olur. Hər ikisi morfem, kök, affiks və s. öyrənir. Qrammatika sözlər, söz qrupları və daha böyük vahidlər arasında qrammatik münasibətləri ifadə etməyin müxtəlif yollarını izah edir. Məsələn, *She go to school yesterday* – cümləsi qrammatik cəhətdən səhvdir. Leksikologiyanın stilistika ilə də əlaqələri var, çünki hər ikisi məna, lüğət təbəqələşməsi və üslub problemlərini araşdırır. Məsələn, *child, infant, bebe, kid* sözləri üslublarına görə bir-birindən fərqlənir.

Söz aşağıdakı üsullarla öyrənilir:

• Sözlərin quruluşu morfologiyanın obyektidir.
• Söz yaradıcılığı başlığı altında yeni sözlərin düzəldilməsi prosesi öyrənilir.
• Semasiologiya sözlərin mənası və onların lüğətdəki əlaqələri ilə məşğul olur.
• İfadələr və idiomlar frazeologiyada müzakirə olunur.

Leksikologiya və dil tarixi: Leksikologiyanın dil tarixi ilə əlaqəsi var, çünki sonuncu müasir ingilis dilinin lüğətində müxtəlif xüsusiyyətləri izah edir. Omonim və sinonimlərin mənşəyindən bəhs edir, etimoloji dubletlərin köklərini izləyir. Etimoloji dubletlər bugünkü ingilis dilində forma və məna baxımından fərqli olan, lakin eyni kökdən yaranan sözlərdir. "Sahə nəzəriyyəsi"nin mənşəyini 19-cu əsrin ortalarına, Humboldt və Herderin ideyalarına aid etmək olar. Leksik sahə nəzəriyyəsinə görə, "dilin lüğət tərkibi mahiyyət etibarilə məna əlaqəsi ilə qurulmuş dinamik və yaxşı inteqrasiya olunmuş leksemalar sistemidir." Söz ehtiyatı sistemi davamlı olaraq dəyişir, bəzi köhnə leksemlər yox olur, bəzi leksemələrin mənası isə genişlənir və ya daralır.

Leksik məna dedikdə əsas mənadan, məsələn, *play* sözündən, *plays, played, playing*-kimi sözlərin yaranması başa düşülür. Xüsusi bir söz bir dilin danışanları tərəfindən anlaşılan ümumi konseptual mənanın simvoludur. Cefriy Liçin semantik təhlilinə görə, terminin assosiativ mənası "danışanın fərdi psixi anlayışlarına" aiddir. Assosiativ mənalar altı növə bölünür: konnotativ, kollokativ, sosial, affektiv, əks və tematik.

Konnotativ məna: Sözün təklif etdiyi və ya nəzərdə tutduğu məna.

Üslubi məna: Sözlər onları müxtəlif kontekstlərə uyğunlaşdıran üslub xüsusiyyətlərinə malik ola bilər.

Affektiv məna: Sözün təsirli mənası sözün daha fərdiləşdirilmiş tərifidir. Bu, natiqin söz seçiminə təsir edəcək şəxsi emosiyalarına aiddir.

Kollokativ məna: J.R.Firth bildirir ki, "bir sözün mənasını ümumilikdə bilməlisiniz".

Sərbəst söz birləşmələri və frazeoloji vahidlər: Frazeoloji vahid: "Tamamilə və ya qismən köçürülmüş məna ilə xarakterizə olunan sabit söz qrupudur". (A.V.

Koonin). Tərkib leksemələrini tədqiq etməklə mənasını çıxarmaq mümkün olmayan sözlər qrupudur. Onlar dildə hazır şəkildədir, *a dark horse, a white elephant.*

Frazeoloji vahidlər müstəqil mənası olan bölünməz birləşmə və ifadələrdir. Dildəki frazeoloji vahidlərə frazem, yaxud ifadə də deyilir. Frazeoloji vahidlərin hamısı birlikdə dilin frazeoloji tərkibini təşkil edir. Deməli, həm leksik, həm də frazeoloji vahidlər dilin lüğət tərkibində müstəqil mövcud olan lüğəvi vahidlərdir.

Dildəki leksik vahidlərə nisbətən frazeoloji vahidlər azdır. Dilin lüğəvi vahidləri olan leksem və frazemlərin bir-birinə yaxın və fərqli əlamətləri nəzərə alınaraq, bunlardan ayrı-ayrı sözlər leksikada, bölünməz birləşmə, ifadə və ibarələr isə frazeologiya bəhsində öyrənilir.

Sərbəst söz birləşmələri: Sərbəst söz qrupları yalnız nisbətən sərbəstdir. Onlar belə adlanır, çünki hər dəfə nitq prosesində yenidən qurulurlar. Sərbəst söz qrupunun istifadəsi zamanı əvəzetmə mümkündür. Frazeoloji vahidlərin semantik təsnifatı vahidin motivasiyasına əsaslanır, üç növə bölünür: Frazeoloji birləşmələr: Frazeoloji birləşmələr tərkib hissələrindən mənasını çıxarmaq mümkün olmayan vahidlərdir. Frazeoloji birləşmənin mənası motivsizdir. Məsələn, *to bark to the moon, to ride the high horse,* və s. Frazeoloji birliklər: ifadələri komponentlərinin mənalarından anlamaq olar; bütöv məna komponentlərin köçürülmüş mənalarına əsaslanır, məs. *to show one's teeth* (means to be unfriendly), *to play the first fiddle.* Frazeoloji birləşmələrdə bir komponent öz birbaşa mənasında, digəri isə metaforik mənada işlənir, məs. *to meet requirements, to attain success.*

Söz əmələ gətirmə yeni sözün yaradılması prosesidir. Söz əmələ gəlməsinin iki növü var, məhsuldar və qeyri-məhsuldar. Məhsuldar yollara affiksasiya (*-ess- actress, -dom- freedom),* konversiya (*dust-to dust, boo-to boo, in, out-the ins and outs*), mürəkkəb sözlər (*toothache, handicraft, filmstar),* qısaltmalar (abbreviature) (*lab, exam, Zoo, frig, NATO, UK, MR)* daxildir.

Qeyri-məhsuldar yollara səs təqlidi *(splash, moo, roar),* vurğunun yerinin dəyişməsi ilə mənanın dəyişməsi (*to ob'ject-'object)*, səs dəyişməsi, yəni sait və ya samitin dəyişməsi (*to sit-to set, food-to feed, life-to live)* və tərsinə söz yaratma (back formation) daxildir. Back formation, mövcud sözün şəkilçisi hesab olunan sonluğun itirərək yeni sözün əmələ gəlməsi prosesidir; məsələn: *to baby-sit* sözü *baby-sitter* dən düzəlmişdi, *to burgle* isə *burglar* sözündən düzəlib, *to edit- editor* və s.

Semasiologiya sözlərin tarix boyu dəyişməsini, məsələn, mənanın genişlənməsi/ümumiləşdirilməsi (məsələn, stock - stock of firewood → stock of any goods) və sözün mənasının daraldılması/dəqiqləşdirilməsi (məsələn, fiction - figment → a type of book or story that is written about imaginary characters), mənanın yüksəlməsi və mənanın düşməsi kimi hadisələri öyrənir.

Yüksəklik (elevation) sözün təvazökar başlanğıcdan daha əhəmiyyətli bir mövqeyə yüksəlməsi üçün semantik dəyişiklikdir, məsələn; *minister* qədim dövrdə "a servant"

mənasında işlənirmiş. Deqradasiya bu və ya digər səbəbdən sözün nüfuzdan düşdüyü və ya hansısa alçaldıcı emosionallıq qazandığı semantik dəyişiklikdir.
Məsələn; *silly* mənşəyi "happy" mənasını verirmiş.

Digər nümunələrə baxaq:

Knave: boy → swindler, scoundrel
Villain: farm-servant, serf → base, vile person
Gossip: god parent → the one who talks scandal; tells slanderous stories about other people

Bu misallar göstərir ki, ikinci məna, özünün yarandığı mənadan fərqli olaraq, pis şöhrətli və ya xasiyyətli insanı bildirir. Semantik baxımdan ikinci mənada birincidə olmayan mənfi qiymətləndirici konnotasiya yaranmışdır. Köçürmə prosesini müşayiət edən konnotativ strukturda belə bir düzəliş bəzən yalnız isimlərdə deyil, digər nitq hissələrində də müşahidə edilə bilər.

Aşağıdakı misallarda vəziyyət tərsinədir: birinci məna mənfi qiymətləndirici konnotasiyaya malikdir, ikinci məna isə yox. Burada əslində nəyin "yüksək" olduğunu görmək çətindir:

Fond: foolish → loving, affectionate
Nice: foolish → fine, good
Tory: brigand, highwayman → member of the Tories
Knight: manservant → noble, courageous man
Marshal: manservant attending horses → the highest rank in the army
Lord: master of the house, head of the family → baronet (aristocratic title)
Lady: mistress of the house, married woman → wife or daughter of baronet.

Semantik dəyişikliklərin diqqətəlayiq nəticəsi həm də metafora (*His idea was difficult to swallow)*, təşbeh (*My love is like a melody),* metonimiya (*The pit loudly applauded),* sinekdoxa (*from the cradle to the grave),* hiperbola (*A thousand thanks)* və s. kimi stilistik fiqurların formalaşmasına səbəb olan mənanın ötürülməsidir. Bununla birlikdə, semasiologiyada ən problemli olan sinonimlik və çoxmənalılıq məsələləridir, buna görə ingilis dilində çoxlu sayda sözlərin yeni mənaları meydana çıxır. Beləliklə, polisemiya dil sistemini təsvir etmək və sözün mənasını adekvat başa düşmək və ondan uyğun istifadə ilə bağlı praktiki problemləri həll etmək üçün son dərəcə vacib olan bir hadisədir.

Sözün istifadə tezliyi nə qədər yüksəkdirsə, onun semantik quruluşunu təşkil edən mənaların sayı da bir o qədər çox olur. Sözün tezliyi, uzunluğu və qeyri-müəyyənliyi arasındakı əlaqəni ifadə etmək üçün "Zipf qanunu" kimi tanınan xüsusi bir düstur hazırlanmışdır. Bu düstura görə, "söz nə qədər qısa olarsa, onun istifadə tezliyi də bir o qədər yüksək olar; tezlik nə qədər yüksəkdirsə, onun uyğunluğu bir o qədər genişdir, yəni daha çox ifadə yarada bilər; onun uyğunluğu nə qədər geniş olarsa, müxtəlif kontekstlərdə bir o qədər çox işlənər. Polisemantik sözün

mənalarından biri onun leksik-semantik variantı kimi səciyyələnir; bütün leksik-semantik variantlar isə sözün semantik paradiqmasını təşkil edir.

Nümunələrə baxaq;

1) Bank /bæŋk/ (n.) -1.an organization where people and businesses can invest or borrow money, change it to foreign money, etc., or a building where these services are offered; *I need to go to the bank to deposit some money*.

2.sloping raised land, especially along the sides of a river; *We had a picnic on the bank of the river.*

2) Bat /bæt/ (n.)- 1.a small animal like a mouse with wings that flies at night; *A bat flew into the cave*.

2.a specially shaped piece of wood used for hitting the ball in some games; *He swung the bat and hit a home run.*

3) Bark /bɑːrk/-1.the hard outer covering of a tree (noun)*; The bark of the tree is very rough.*

2.to make the loud, short noise that a dog and some other animals make (verb);

The dog began to bark loudly.

4) Bow /baʊ/ or /boʊ/-1.to bend your head or body forward, especially as a way of showing someone respect or expressing thanks to people who have watched you perform (verb)*; He bowed before the queen.*

2.a weapon for shooting arrows, made of a long, thin piece of wood or fiberglass bent into a curve by a tightly stretched string (noun); *She aimed her bow and released the arrow.*

5) Date /deɪt/-1.a numbered day in a month, often given with a combination of the name of the day, the month, and the year (noun)*; What is the date today?*

2. to regularly spend time with someone you have a romantic relationship with (verb);

They decided to date each other.

İngilis dili sinonimlərlə çox zəngindir, çünki onun 8000-dən çox sinonim cərgəsi var və onların böyük əksəriyyəti alınmalarla zənginləşib. Xüsusi qrup Amerika-Britaniya sinonimlərindən, yəni ingilis dilinin Amerika və Britaniya variantlalarında müvafiq olaraq mövcud olan eyni məfhumların adlarından ibarətdir. Bu zaman bilməliyik ki, bu cür sözləri müqayisə edərkən onların hansı mənalarda işləndiyi həmişə göstərilməlidir, çünki çoxmənalılığa görə bir və eyni söz müxtəlif semantik qruplara aid ola bilər, onların sinonimi kimi çıxış edə bilər. Bundan əlavə, "bütün sinonim cərgələrdə bütün sinonim sətirlər üçün ümumi olan denotativ məna daşıyan "mərkəzi" söz vardır. Bu söz dominant sinonim adlanır, o, yüksək istifadə tezliyi, geniş ümumi məna və birləşmə, konnotasiyaların olmaması ilə xarakterizə olunur. Başqa bir problem ingilis dilində mütləq sinonimlərin çox nadir olmasıdır. İngilis dilində geniş işlənən sözlərin sinonimlərinə nəzər salaq;

Amazing, Incredible, Unbelievable, Improbable, Astonishing

Answer, Reply, Respond, Retort, Acknowledge
Ask, Question, Inquire, Query, Interrogate
Beautiful, Gorgeous, Dazzling, Splendid, Magnificent
Big, Enormous, Huge, Immense, Gigantic
Fat, Stout, Corpulent, Paunchy, Plump
Happy, Pleased, Contented, Satisfied, Delighted
Make, Design, Fabricate, Manufacture, Produce
Part, Portion, Section, Fraction, Fragment
Ugly, Horrible, Unpleasant, Monstrous, Terrifying

İngilis dilində elə sinonimlər var ki, onlar bəzi kontekstlərdə bir-birini əvəz edə bilir. Lakin burada biz bəzi ziddiyyətli fikirlərə rast gəlirik. Belə ki, bir çox dilçilərin fikrincə, onlar yenə də morfem, fonemik quruluş, məna çalarları, üslub, emosionallıq baxımından bir-birindən fərqlənəcəklər. Ona görə də bir çox mövqe və yanaşmalardan baxılan sinonimlərin növləri ilə bağlı məsələ dilçilikdə də kifayət qədər mübahisəlidir.

Beləliklə, denotativ və konnotativ komponentlərdəki fərq meyarına görə sinonimlər ideoqrafik və üslub xüsusiyyətlərinə görə fərqlənir. Kontekstdə bir-birini əvəz etmə meyarına görə onlar iki yerə bölünür; tam- məna dəyişikliyi olmadan istənilən kontekstdə bir-birini əvəz edə bilən sinonim qrupun üzvləri, nisbi- eyni anlayışın müxtəlif dərəcələrini ifadə edən və yalnız bəzi kontekstlərdə əvəz edilə bilən sinonimlər.

Etimologiya. İngilis dilində sözlərin yalnız 30%-i ingilis mənşəlidir (anqlo-sakson), qalanları müxtəlif dillərdən götürülmüşdür, ona görə də etimologiyaya dair biliklər filologiya tələbələrinə nəinki bu iki lüğət qrupunu ayırd etməyə kömək edəcək, həm də onlara ingilis dilinin zənginliyini, inkişafını, dinamikasını və təkmilləşməsini göstərmək, ingilis xalqının tarixinə və dilinə hörmət hissini formalaşdıracaq. Doğma ingilis sözlərinə ailə münasibətlərini bildirən, heyvan və quşların adlarını, bədən hissələrini, 1-dən 100-ə qədər rəqəmləri, təbiət hadisələrinin bildirən, bitkilərin adlarını, zaman dövrlərinin adlarını bildirən sözlər aiddir. Əsas və köməkçi feillər sifətlər, zərflər və ön sözlər də dogma ingilis sözləridir. Məsələn; *father, son, wife, horse, cow, fox, arm, hand, finger, sun, moon, tree, 0ak, make, say, shall, will* və s. Şəxs əvəzlikləri, *they, them, their dən* başqa hamısı ingilis mənşəli sözlərdir.

İngilis dili lüğətinin böyük əksəriyyətini təşkil edən başqa dillərdən götürülmüş sözlər yerli leksik vahidlərdən fonetik və morfoloji quruluşuna, qrammatik formalarına görə fərqlənir. Hər bir söz ingilis dilinə daxil olarkən o, müəyyən assimilyasiyaya uğrayır. Assimilyasiya dərəcəsinə görə alınmalar tam assimilyasiya olunmuş (qarşılıqlı alınma sayılmaqdan çıxmış), qismən mənimsənilmiş (qrammatik, fonetik və ya qrafik formalarını və semantikasını

saxlamış) və assimilyasiya olunmamış kimi təsnif edilir. Məsələn; *leggs-leg, schwindler-surndler: fiancée, garage, champagne.*

Alınmaları qruplaşdırarkən lap qədim dövrdən başlayaraq bu cür təsnif etmək olar: Kelt dilindən, Skandinav, Roman (latın və yunan), fransız, italyan, ispan, alman, və s. dillərdən alınmış sözlər.

Latın dilindən alınmış sözlər;

Alibi - evidence that shows someone didn't do a crime because they were somewhere else.

Bonus - extra (and sometimes unexpected) money or goods.

Data - facts, numbers, and statistics used for analysis.

Veto - a no vote (or the power to say no) that stops an action.

Yunan dilindən alınmalar;

Democracy - a government system by the people of the country.

Hyperbole - exaggerated statements made for effect (a figure of speech).

Metamorphosis - changing into something completely different.

Philosophy - the study of basic ideas about knowledge, life, reality, religion, truth, nature, etc.

Symphony - a piece of music for a full orchestra.

Alman mənşəli sözlər;

Doppelgänger - a person who looks exactly the same as another person (but not twins).

Kindergarten - a preschool full of singing, games, drawings, playing, etc.

Poltergeist - a ghost that makes loud noises or throws objects.

Rucksack - a backpack.

Wanderlust - a strong desire to travel.

Fransız dilindən alınmalar;

Ballet - a kind of dance.

Bouquet - a bunch of flowers.

Café - a coffee shop.

Cuisine - a style (like a country or culture) of cooking.

*Rendezvou*s - a meeting at an agreed time and place.

İspan dilindən alınmış sözlər;

Armada - a fleet of warships.

Canyon - a deep gorge with a river flowing through it.

Guerrilla - a soldier or fighter who isn't part of a government's army.

Patio - an outdoor space for dining or relaxing.

Plaza - a public square or marketplace.

Tarixən ingilis dilinə digər müasir dillərə nisbətən daha çox söz daxil olmuşdur. Bununla belə, xarici sözlərin qəbulu yalnız kəmiyyət dəyişiklikləri kimi başa düşülməməlidir. Alınma sözlər ingilis dilində sinonim qrupların sayını xeyli

artırdı. Amma ingiliscə sözlərin rolunu qiymətləndirməmək olmaz. Kök sözlərin alınmalarla müqayisədə mənasını qiymətləndirməyin yeganə yolu onların nitqdə, o cümlədən yazıda necə işlədildiyini nəzərə almaqdır. İngilis leksikologiyasında etimoloji dubletlər, üçlüklər və hibridlər kimi anlayışların mövcudluğu haqqında da bilmək lazımdır. Etimoloji dubletlər eyni etimoloji mənbədən yaranan, lakin fonemik ifadə və məna baxımından fərqlənən söz cütləridir. Bunlar eyni dildən iki dəfə, lakin müxtəlif dövrlərdə götürülmüş sözlərdir, məsələn, *travel* – Norman-French (qədim dövr) və *travail* - Paris-French (orta dövr)). Və ya müxtəlif dillərdən götürülmüş, lakin tarixən bir kökdən gələn sözlər ola bilər, məsələn, *hospital* - Latin, *hostel* - Norman-French, *hotel* - Paris-French. Hibridlər iki və ya daha çox dildən alınmış morfemlərdən əmələ gələn sözlərdir məsələn, *readable* – sözünü təhlil etsək görərik ki, sözün kökü ingilis mənşəli, Fransız dilindən alınmış latın mənşəli *-abilis* şəkilçisindən ibarətdir.

Ədəbiyyat siyahısı

1. Hajiyeva A. English Lexicology. Baku, 2011.
2. Najaflı E., Taghiyeva S. English Lexicology. Baku, 2018.
3. Crabb A.M. English Synonyms Explained. London, 1958.
4. Ginsburg R.S. A Course in Modern English Lexicology. Moscow, 1979.
5. Goursky S.E. The Idiomatic Heart of the Language. Lvov, 1975.
6. Joachim Grzega, Marion Schöner. English and General Historical Lexicology. Materials for Onomasiology Seminars. Germany, July 2007
7. Kuznetsova V.S. Notes on English Lexicology. K., 1968.

Internet resursları
https://cambridgescholars.com
https://global.oup.com.
www.britannica.com.

Summary

Mehriban M.Tahmazova

Issues in historical lexicology of the English language

The article is devoted to the main problems faced by students while learning the lexicology of the English language. The article emphasizes the importance of studying lexicology in the course of a higher education institution, because knowledge of lexical units is the basis for the formation of communicative competence and mastering a foreign language in general. A sufficient number of

programs and textbooks on English lexicology served as material for the article. In the study, the main object of the subject was analyzed, the connection of lexicology with other branch of linguistics, its types, word creation, semasiology and word etymology were investigated. Knowledge of lexicology allows students to recognize different words according to their semantic and stylistic features, to learn different ways of word formation and combinations of lexical units, to select lexical units according to the context, and finally to learn.

Резюме

М.М.Тахмазова

Проблемы исторической лексикологии английского языка

Статья посвящена основным проблемам, с которыми сталкиваются студенты при изучении лексикологии английского языка. В статье подчеркивается важность изучения лексикологии в курсе высшего учебного заведения, ведь знание лексических единиц является основой формирования коммуникативной компетенции и овладения иностранным языком в целом. Материалом для статьи послужило достаточное количество программ и учебников по английской лексикологии. В ходе исследования был проанализирован основной объект предмета, исследованы связь лексикологии с другими областями языкознания, ее виды, словотворчество, семасиология и этимология слов. Знание лексикологии позволяет учащимся распознавать разные слова по их семантическим и стилистическим особенностям, изучать различные способы словообразования и сочетания лексических единиц, подбирать лексические единицы в зависимости от контекста и, наконец, учиться.

Rəyçi: f.f.d., baş müəllim Səlimova Sevinc (ADU)